# "Mənim uğurum mənim komandamdır"

## Nahid Hacıyev: "Bizdəki qonaqpərvərliyi Avropada tapmaq olmur"



**Uğurunun sirrini komandasında görür. Deyir ki, belə bir komanda ilə birgə işləyib uğur əldə etməmək günahdır. Müsahibimiz Azərbaycan Turizm Assosiasiyasının rəhbəri, BMT yanında Ümumdünya Turizm Təşkilatına qoşulmuş üzv dövlətlərinin Avropa üzrə vitse-prezidenti Nahid Hacıyevdir.**

**N.Hacıyev 1979-cu ildə Bakıda anadan olub. Azərbaycan Beynəlxalq Universitetinin Hüquq, daha sonra Bakı Dövlət Universitetinin Beynəlxalq hüquq və beynəlxalq münasibətlər fakültəsini bakalavr pilləsi üzrə bitirib. Hazırda İngiltərə universitetlərindən birində MBA üzrə təhsil alır.**

Lalə MUSAQIZI

**- İki bakalavr təhsilindən sonra harada işə başladınız?**

- Hələ tələbəykən, 1998-ci ildə iş fəaliyyətinə Sabunçu Rayon Məhkəməsində başladım. Gözətçi ştatından katib ştatına qədər qalxdım. Sonra hərbi xidmətə getdim və qayıdanda hüquqşünas kimi fəaliyyət göstərdim. Hüquq şirkətlərindən birinin vitse-prezidenti təyin olundum. 2005-ci ildə isə "Xəzər travel" şirkətini yaratdım və şirkətin direktoru oldum. 2009-cu ildə Azərbaycan Turizm Assosiasiyası ictimai qurumu yarandı və həmin qurumun İdarə Heyətinin sədri vəzifəsinə seçildim. 2014-cü ildə yenidən Azərbaycan Turizm Assosiasiyasının sədri seçildim. 2012-ci ildən etibarən Ümumdünya Turizm Təşkilatının üzvlüyünə daxil olduq və elə həmin il sözügedən təşkilatın vitse-prezidenti vəzifəsinə seçildim. 2013-cü ildə yenə də namizədliyimi verdim və bu dəfə adi vitse-prezident kimi deyil, Avropa ölkələri üzrə vitse-prezident seçildim. Qeyd edim ki, təşkilatda əsas 4 vitse-prezident var: Amerika, Afrika, Avropa və Asiya ölkələri üzrə. 2015-ci ildə yenidən eyni vəzifəyə seçildim.

**- Hüquq fakültəsinə yəqin hakim olmaq ümidi ilə daxil olmuşdunuz?**

- Elədir, hakim olmağı arzulayırdım. Buna görə tələbəlikdə məhkəmə sistemində işə başladım.

**- Bəs necə oldu ki, məhkəmə sistemini turizm sferasına dəyişdiniz?**

- Xaricə bir-iki səfərim oldu. Ondan sonra başa düşdüm ki, turizm mənim üçün daha maraqlıdır.







**- Hakimliyi deyil, turizm sektorunu seçdiyinizə görə peşmançılığınız olub?**

- Xeyr. Çünki özümü turizmdə tapmışam. Bundan sonra da başqa bir sahəyə getmək fikrim yoxdur.

**- İşinizlə əlaqədar çoxlu xarici ölkədə olursunuz. Azərbaycanla xarici, xüsusilə Avropa ölkələrini müqayisə edəndə ilk növbədə ağlınıza gələn fərqlər hansılardır?**

- İlk növbədə mentalitetlərimiz çox fərqlidir. Bizdəki qonaqpərvərliyi Avropada tapmaq olmur. Məsələn, mənim xaricdən, yaxud elə öz ölkəmizdən qonağım olanda sevinc hissləri yaşayıram. Bütün işlərimi atıb qonaqla məşğul oluram. Bu, mənə ləzzət verir. Bir əhvalat danışım. Avropa ölkələrindən birində dostum var. O, hər dəfə Azərbaycana gələndə onu çox yaxşı qarşılayır və bütün günümü ona sərf edirdim. Bir dəfə mən onun yaşadığı ölkəyə getməli oldum. Orada olanda zəng edib harada olduğumu soruşdu? Dedim, filan yerdəyəm. Soruşdu ki, gəlim? Bu, mənim xətrimə dəydi. Təbii ki, deyə bilməzdim, gəl, dedim, narahat olma. Sonra bir məclisdə bu söhbət açıldı. Mənə izah etdilər ki, sizin mentalitet başqadır, dostum da ona görə "gəlim" deyə soruşub ki, bəlkə onun gəlməyi mənə narahatçılıq törədər. Amma mən belə deyiləm axı... Zəng vurub dostumun harada olduğunu soruşanda, dərhal ora yola düşürəm. Bir sözlə, fərqimiz böyükdür.

Hesab məsələsi də əcnəbilərlə bizim aramızdakı ən böyük fərqlərdəndir. Avropalılar həmişə Azərbaycana gələndə gülürlər. Hesab vermək məqamını səbirsizliklə gözləyirlər. Onlara təəccüblü gəlir ki, biz bir-birimizlə hesab üstündə mübahisə edirik.

**- Necə oldu ki, Azərbaycan Turizm Assosiasiyasının rəhbəri kimi 2 dəfə BMT yanında Ümumdünya Turizm Təşkilatına qoşulmuş üzv dövlətlərinin Avropa üzrə vitse-prezidenti seçildiniz?**

- 2012-ci ildə əvvəlcə sözügedən təşkilata vitse-prezident seçildim. Bəlkə cavan, aktiv olduğuma, yeni ideyalar verdiyimə görə seçildim. Onu da deyim ki, bu qurumda neçə illərdir, İspaniyanın 50-60-a yaxın nümayəndəsi var. Bu qurum dünyada çox populyardır və hamı istəyir ki, üzv olsun. Ümumdünya Turizm Təşkilatına elə-belə namizədlik verib üzv ola bilməzsən. Bunun üçün mütləq dövlət tərəfindən dəstəyiniz olmalıdır. Vitse-prezidenti bir adam deyil, üzvlər səsverməyolu ilə seçirlər. Üzvlərin əksəriyyəti ispanlar olduğuna görə hamısı bir-birinə səs verirlər. Azərbaycanlının vitse-prezident seçilməsi ilə biz bu sindromu sındırdıq. Sonuncu seçkidə də sübut etdik ki, biz təsadüfən ora seçilməmişik, dünya özü bizə dəstək olub. Bu, böyük qələbədir.

**- Ümumdünya Turizm Təşkilatına qoşulmuş üzv dövlətlərin Avropa üzrə vitse-prezidenti kimi çiyinlərinizə hansı məsuliyyət düşür? Hansı işləri görürsünüz?**

- Turizmlə bağlı Avropa üzrə hansısa layihə reallaşdırmaq istəyəndə ilk növbədə vitse-prezident kimi bizə müraciət edir, məsləhətləşirlər. Təkliflər də bizdən keçir. Bundan başqa, vitse-prezident kimi xarici ölkələrə müxtəlif tədbirlərə, sərgilərə dəvətlər olur. Problem olanda da zəng edib bizimlə məsləhətləşirlər. Bu, ölkənin imici üçün böyük nailiyyətdir. İstər-istəməz Azərbaycanın adı hallanır.

**- Azərbaycan turizmində inkişaf gedir, amma etiraf edək ki, istədiyimiz səviyyədə deyil. Əlinizdə səlahiyyət olsaydı, turizm sahəsində inkişaf üçün ilk növbədə hansı addımları atardınız?**

- Biznesmenlə dövlət məmurunun məsələlərə baxış bucağı başqadır. Biznes sahəsinin nümayəndəsi kimi bəzən nədənsə narazılıq edirik, amma dövlət məmuru ilə qarşı-qarşıya oturub məsələni müzakirə edəndə, görürsən ki, o, düz deyir, bizim bilmədiyimiz məqamlar var. Amma deyə bilmərəm ki, dövlət məmuru hər zaman düz deyir.

Tərəfdarıyam ki, turizm şirkətlərinə, hotellərə lisenziya verilməsində şərtlər çətinləşdirilsin. Bundan başqa, hər bir turizm şirkətinin rəhbəri özəl attestasiyadan keçsin. Çünki turizm şirkəti turizmin üzüdür. Şirkətin rəhbəri isə xaricdə keçirilən sərgilərə, görüşlərə gedir, Azərbaycanı təmsil edir, ölkəyə turist gətirməyə çalışır. Yalnız bundan sonra hotellər işə başlayır. Ölkənin imicini formalaşdırdığına görə turizm şirkətinin rəhbəri müəyyən dünyagörüşünə malik olmalıdır.

**- Son ənənəvi sualımız: karyeranızda qazandığınız uğurun sirri nədədir?**

- Mənim uğurum mənim komandamdır. Xoşbəxtəm ki, belə bir komanda, belə bir İdarə Heyəti ilə çalışıram. Ölkədə öndə gedən turizm şirkətlərinin rəhbərləri, hotel müdirləri, Azərbaycan Turizm və Menecment Universitetinin rektoru, Şahdağ Turizm Kompleksinin müdiri ilə bir komandada işləyirik. Bu, bizim böyük uğurumuzdur. Qələbəmizin də sirri məhz bundadır. Bu komanda ilə bir yerdə işləyib uğur əldə etməmək günahdır.